# QARABAĞ AZƏRBAYCANDIR

# ŞƏHİDLİK MƏQAMINA YÜKSƏLMİŞ MƏDƏNİYYƏT İŞÇİLƏRİMİZ...










Mədəniyyət Nazirliyinin mədəniyyət müəssisələrində çalışanlar da İkinci Qarabağ savaşının ilk günlərindən könüllü olaraq ordu sıralarına yazılıblar və onlardan 65 nəfəri qanlı döyüşlərdə iştirak edib.

Müxtəlif cəbhələrdə igidlik, peşəkarlıq, şücaət göstərən mədəniyyət işçilərimizdən 7 nəfər - Füzuli rayon 3 nömrəli Uşaq Musiqi Məktəbinin müəllimi Toğrul Rüfət oğlu Hacıyev, Qobustan şəhər Rəşid Behbudov adına Uşaq İncəsənət Məktəbinin müəllimi Rauf İlyas oğlu Əliyev, Gəncə şəhər Nizami Məqbərəsinin bələdçisi Hikmət Lətif oğlu Məmmədov, Göyçay şəhər Uşaq Musiqi Məktəbinin müəllimi Alim Səhrab oğlu İbrahimov, Cəbrayıl rayon Mahmudlu kənd Uşaq Musiqi Məktəbinin müəllimi Zamin Vahid oğlu Rəhimov, Lənkəran şəhər Mədəniyyət Mərkəzinin kurs rəhbəri Tural Rövşən oğlu Hümmətov, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının əməkdaşı Əliağa Eldəniz oğlu Məmmədov şəhidlik məqamına yüksəliblər.

Vaxtilə mədəniyyətimizə xidmət edən bu igidlər Vətən yolunda canlarından keçərək adlarını Azərbaycan tarixinə qızıl hərflərlə yazıblar.

Vətən müharibəsinin şəhidləri arasında mədəniyyət sahəsində çalışan 161 nəfərin yaxın qohumu da var. 6 nəfər mədəniyyət işçimiz döyüşlərdə yaralanaraq savaşdan qazi kimi dönüb.

Biz də “Mədəniyyət/Culture” jurnalı olaraq, şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirik!

Növbəti saylarımızda da əsas mövzularımız şəhid və qazilərimizin nümunəvi həyat və döyüş yolu barədə olacaq...







